# Xalq şairi Nəriman Həsənzadə ilə görüş

Mayın 18-də Azərbaycan Texniki Universitetində xalq şairi, əməkdar incəsənət xadimi, Milli Aviasiya Akademiyasının kafedra müdiri, professor Nəriman Həsənzadə ilə görüş keçirildi. Tədbiri universitetin rektoru, professor Havar Məmmədov açaraq şairin həyat yolu, zəngin yaradıcılığı barədə ətraflı məlumat verdi. Rektor görkəmli şairin Azərbaycan ədəbiyyatına, xüsusən poeziyamıza verdiyi töhfələri yüksək dəyərləndirdi. Şairin 80-ci illərdə qələmə aldığı "Nəriman" poemasını və "Atabəylər" dramını müasir Azərbaycan ədəbiyyatında tarixi hadisə kimi qiymətləndirdi.

Sonra Milli Aviasiya Akademiyasının kafedra müdiri, hüquq elmləri doktoru, professor İbrahim Quliyev, Azərbaycan Dövlət İqtisad Universitetinin kafedra müdiri, professor Maarifə Hacıyeva, şair Ramiz Məmmədzadə, "Azərbaycan Cümhuriyyəti" qəzetinin redaktoru Ramin Qurban çıxışlarında Nəriman Həsənzadənin yaradıcılığında Azərbaycan xalqının tarixinin, mədəniyyəti və incəsənətinin təbliğinə geniş yer verildiyini vurğuladılar.

Xalq şairi N.Həsənzadə tələbələrin suallarını ətraflı cavablandırdı və lirik şeirlərini oxudu.

Görüş tələbələrin şairin şeirləri əsasında hazırladıqları ədəbi-bədii kompozisiya ilə başa çatdı.

**Sifai SƏFƏROVA**

**Azərbaycan müəllimi.- 2010.- 21 may.- S.8.**